

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 167 (21.828)

*6 sentyabr 2017-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Sentyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də MDB üzv dövlətləri Ali Maliyyə Nəzarəti Orqanları Rəhbərləri Şurasının Bakıda keçirilən XVII sessiyasının iştirakçılarını qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Gürcüstanın Baş nazirinin müavini-xarici işlər naziri Mixeil Canelidzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Sentyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Nizami rayonundakı şəhid Xalid Quliyev adına 62 saylı məktəb-liseydə, 10 saylı və 201 saylı tam orta məktəblərdə həyata keçirilən əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.

## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilir



***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilib.***

Müşavirədə mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək deyib ki, bu gün muxtar respublikamızda 29 muzey, 3 dövlət teatrı, 2 dövlət filarmoniyası, 400-dən çox klub, mədəniyyət evi, kitabxana, mədəni-maarif müəssisəsi, 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi və digər mədəniyyət, turizm obyektləri fəaliyyət göstərir. Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında fəaliyyət göstərən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərindən 21-i müstəqil qazanxana sistemi, 2-si ümumiləşdirilmiş istilik sistemi, 4-ü isə dizel yanacağı ilə, konsert-tamaşa və digər əsas müəssisələrdən 2-i qazanxana sistemi, 8-i isə ümumiləşdirilmiş qaydada qızdırılacaqdır.

Bildirilib ki, cari ildə nazirliyin tabeliyində olan müəssisələrin ehtiyacı üçün 40 min litr dizel yanacağı, 77 kvadratmetr şüşə, 91 ədəd şifer, 600 kiloqram maye qaz, 595 metr polietilen, 47 ədəd neft sobası, 188 ədəd boru və 94 ədəd dirsək alınacaqdır. Müəssisə və təşkilatlarda müstəqil qazanxana və kombi sistemlərinin mövsümə hazırlığı vəziyyəti də yoxlanılır, onlar tam hazır vəziyyətə gətirilir.

Qeyd olunub ki, mədəniyyət müəssisələri də daxil olmaqla nazirliyin sistemindəki bütün müəssisələr payız-qış mövsümündə yaradılacaq fasiləsiz iş şəraitindən səmərəli istifadə etməli, işini günün tələbləri səviyyəsində qurmalı, əhaliyə yüksək səviyyədə mədəni xidmət göstərməli, tədris prosesi tələb olunan səviyyədə qurulmalı və asudə vaxtın səmərəli təşkil edilməsi təmin olunmalıdır.

Sonra Culfa Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Pərvin Həsənov, M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru Aytəkin Qəhrəmanova, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru Rza Xudiyev, C.Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyinin direktoru Aləmzər İbrahimova və başqaları payız-qış mövsümünə hazırlıqla bağlı məlumat veriblər.

Müşavirəyə mədəniyyət və turizm naziri Natəvan Qədimova yekun vurub.

* * *

Sentyabrın 5-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində muxtar respublikanın təhsil müəssisələrində payız-qış mövsümünə hazırlığın vəziyyəti və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib. İclasda təhsil naziri Məmməd Qəribov məruzə ilə çıxış edib.

Bildirilib ki, 2016-2017-ci tədris ilində muxtar respublikamızda istilik sistemi ilə işləyən təhsil müəssisələrinin sayı 225 olub. Ötən payız-qış mövsümündə müəssisələrin fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə verilən tapşırıqlara uyğun olaraq təhsil müəssisələri 172 min 492 litr ağ neft ilə təmin olunub. Eyni zamanda təhsil müəssisələrinə 120 ədəd soba, 500 ədəd soba borusu, 250 ədəd dirsək, 600 ədəd şifer, 800 kvadratmetr şüşə və 1200 metr polietilen örtük verilib. Verilən mal-material və yanacaq birbaşa mərkəzləşdirilmiş qaydada rayonlar üzrə bölündü, onlardan səmərəli istifadə olunması nəzarətə götürülüb, mal-materialın təyinatı üzrə düzgün istifadə edilməsi, məktəblərdə təhlükəsizlik qaydalarına əməl olunması üçün reydlər keçirilib və mövsüm ərzində yanacaq çənləri təhlükəsiz yerlərdə saxlanılıb.



Vurğulanıb ki, muxtar respublikamızda təhsilin inkişafı və təhsil müəssisələrində fasiləsiz tədris prosesinin təmin olunması üçün yüksək şəraitin mövcud olmasına baxmayaraq, hələ də bəzi təhsil müəssisələrində verilmiş mal-materialdan lazımi səviyyədə istifadə olunması, təhlükəsizlik texnikası qaydalarına əməl edilməsinə nəzarət sahəsində nöqsanlar qalmaqdadır. Rayon və şəhər təhsil şöbələri və təhsil müəssisələrinin rəhbərləri qeyd olunan məsələlərə diqqətlə yanaşmalı və növbəti tədris ilində mövcud nöqsanların aradan qaldırılması üçün nəzarəti daha da artırmalıdırlar.

Nazir bildirib ki, 2017-2018-ci tədris ilində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində 216 ümumtəhsil məktəbi, 44 məktəbdənkənar müəssisə, 1 orta ixtisas məktəbi, 1 peşə liseyi və 3 texniki-peşə məktəbi fəaliyyət göstərəcəkdir. Muxtar respublika rəhbərinin yüksək diqqət və qayğısı ilə hər il olduğu kimi, 2017-ci ildə də yeni təhsil müəssisələrinin tikintisi istilik sistemi ilə işləyən təhsil müəssisələrinin sayını artırıb. Belə ki, bu il Naxçıvan şəhərində 6 nömrəli, Şərur rayonunda Qarahəsənli, Ərəbyengicə, Ələkli kənd tam orta məktəblərinin tikintisi başa çatdıqdan sonra Naxçıvan şəhəri üzrə 32, Şərur rayonu üzrə 51 təhsil müəssisəsi istilik sistemi ilə işləyəcəkdir. Muxtar respublikada aparılan tikinti-quruculuq işləri Ordubad, Culfa və Babək rayonlarında da geniş vüsət alıb. Tikilməkdə olan təhsil ocaqlarında işlər başa çatdıqdan sonra Ordubad rayonu üzrə 37, Culfa rayonu üzrə 30, Babək rayonu üzrə 30 təhsil müəssisəsi istilik sistemi ilə işləyəcəkdir. Muxtar respublikanın Şahbuz rayonu üzrə 26, Kəngərli rayonu üzrə 17, Sədərək rayonu üzrə isə 9 təhsil müəssisəsi istilik sistemi ilə qızdırılacaqdır.

Vurğulanıb ki, 2017-ci ildə aparılan tikinti-quruculuq işləri başa çatdıqdan sonra muxtar respublikamızda daha 7 təhsil müəssisəsi payız-qış mövsümündə istilik sistemlərinə qoşulacaq, nəticədə, cari tədris ilində rayon və şəhər təhsil şöbələri də daxil olmaqla istilik sistemləri ilə işləyən təhsil müəssisələrinin sayı 232 olacaqdır. Yeni məktəblərin tikilməsi və müasir istilik sistemlərinə qoşulması birnövbəli məktəblərimizin də sayının artmasına səbəb olub.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov yekun vurub.



Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyində keçirilən iclasda nəqliyyat naziri Mirsənani Seyidov bildirib ki, nazirliyin payız-qış mövsümünə hazırlıq komissiyası Şərur rayonunun Havuş, Şahbulaq, Yuxarı Yaycı, Ordubad rayonunun Unus, Tivi, Parağa, Babək rayonunun Gərməçataq, Yuxarı Buzqov kimi ucqar dağ kəndlərinə işləyən nəqliyyat vasitələrinin sahibləri ilə əlaqə saxlayıb, mövcud olan çatışmazlıqların aradan qaldırılması üçün onlara köməklik göstərilib.

Qeyd olunub ki, avqust ayı ərzində muxtar respublikada sərnişindaşıma fəaliyyəti göstərən 303 avtobus və mikroavtobus texniki müayinədən keçirilib, 44 avtobusda bəzi nasazlıqların aradan qaldırılması üçün onlara vaxt verilib, istismara uyğun olmayan 6 avtobus marşrutdan kənarlaşdırılıb. Mövsümə hazırlığı daha mütəşəkkil keçirmək, xəttə buraxılacaq avtobusların sazlığına tam əmin olmaq üçün sentyabr ayında Daxili İşlər Nazirliyi ilə birlikdə sərnişindaşıma ilə məşğul olan avtonəqliyyat vasitələrinin yenidən texniki müayinədən keçirilməsi nəzərdə tutulub.

Avtovağzalların payız-qış mövsümünə hazırlığı diqqət mərkəzində saxlanılır. Nazirliyin əməkdaşları avtovağzallarda olur, istilik sistemləri yoxlanılır, bu sahədə olan çatışmazlıqların aradan qaldırılması üçün lazımi tədbirlər görülür.

Vurğulanıb ki, payız-qış mövsümündə avtonəqliyyat vasitələri ilə təhlükəsiz sərnişin daşınması, marşrut qrafikinə nəzarət edilməsi məqsədilə yeni nəsil texnologiyadan istifadə olunması davam etdirilir. Belə ki, Naxtel 4G, GPS monitorinq izləmə sistemi hazırda Naxçıvan-Bakı istiqamətində hərəkət edən avtobusların hamısına quraşdırılıb. Naxçıvanda şəhərdaxili marşrutlarda işləyən avtobuslara və taksilərə isə GPS-lərin quraşdırılması işləri davam etdirilir. Ümumilikdə, bu günə qədər 44 avtonəqliyyat vasitəsinə bu sistem quraşdırılıb. Yaxın gələcəkdə GPS sistemi sərnişindaşımada geniş yer tutacaq, bütün avtobuslar bu sistemlə təchiz olunacaq.

Diqqətə çatdırılıb ki, nazirliyin əməkdaşları mütəmadi olaraq sərnişindaşıma ilə məşğul olan avtobusların hərəkət qrafikinə nəzarət etməli, sürücülərin geyim formasına, axşam saatlarında şəhərdaxili marşrutların işinin daha səmərəli qurulmasına, avtobuslararası intervalın gözlənilməsinə diqqət artırılmalıdır.

Sonra məruzə ətrafında çıxışlar olub.

İclasa Naxçıvan Muxtar Respublikasının nəqliyyat naziri Mirsənani Seyidov yekun vurub.

* * *

***Naxçıvan Dövlət Universitetində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar yığıncaq keçirilib.***

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qeyd edib ki, hər il payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirələr bu istiqamətdə qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi və həlli baxımından mühüm əhəmiyyət kəsb edir.

Vurğulanıb ki, muxtar respublikada fasiləsiz elektrik enerjisinin və təbii qazın verilməsi, içməli suya olan tələbatın ödənilməsi, istilik sistemlərinin qurulması universitetin də fəaliyyəti üçün əlverişli şərait yaradır.

Həmin müşavirədən sonra artıq universitetdə payız-qış mövsümünə hazırlıq işlərinə start verildiyini diqqətə çatdıran təsərrüfat işləri üzrə prorektor Araz Zalov istilik və elektrik sistemlərinin, su borularının sazlığının təmin olunması istiqamətində görülən işlərdən danışıb.

Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin dekanı, fəlsəfə üzrə fəlsəfə doktoru Yusif Hüseynov universitetdə payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlərin əhəmiyyətini vurğulayıb və bildirib ki, aparılan hazırlıq tədbirləri nəticəsində soyuq qış aylarında da universitetdə tədrisin keyfiyyəti yüksək səviyyədə olacaq.

Yığıncağa rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov yekun vurub.

**Xəbərlər şöbəsi**

Yeniləşən kəndlərimiz

# Abadlaşan yurd yerimiz – Yuxarı Yaycı

## Kənd sakinləri yaradılan şəraitdən yetərincə bəhrələnirlər

***Abadlaşma və müasirləşmə insan cəmiyyətinin ən böyük nailiyyətlərindən biridir. Bəşəriyyət tarixində ilk insan məskənlərinin yaranması və onların genişlənməsi ilk mədəni intibah elementləri kimi dövrümüzə qədər gəlib çatıb. Beşminillik şəhər mədəniyyəti tarixi olan qədim Naxçıvanın dilbər guşələrindən biri olan Şərur rayonunun Yuxarı Yaycı kəndi də müasirləşən kəndlərimizdən biridir.***

İlk olaraq onu qeyd edək ki, muxtar respublikamızda Yaycı adlı üç kənd var. Onlardan biri Culfa, digər ikisi isə Şərur rayonunda yerləşir. Şərurdakı bu kəndlərin hər ikisi bir-birinin yaxınlığındadır. Yerləşdiyi əraziyə görə onlardan biri Aşağı Yaycı, digəri isə Yuxarı Yaycı adlanır. Hər ikisi də dağətəyi ərazidə yerləşir.

Şərur rayonuna növbəti səfərlərimizin birində rayon mərkəzindən şimal-şərqdə, Arpaçayın sahilində, Dərələyəz silsiləsinin ətəyində yerləşən Yuxarı Yaycıya üz tutduq.

Aşağı Yaycıdan bir az yuxarıda yerləşən eyniadlı yaşayış məntəqəsinə uzanan yol bir qədər dərə-təpədən, eniş-yoxuşlardan keçir. Avtomobillə Yuxarı Yaycının qoynuna sarınan dolayı yollarla üzüyuxarı qalxdıqca seyr etdiyim gözəl evlər, abad küçələr, axarlı-baxarlı həyətlər, bağ-bağçalar, bol məhsullu əkin sahələri bu dağ kəndində məskunlaşan insanların yaşayışından, xoş güzəranından xəbər verir.

Yuxarı Yaycı həm də sərhəd kəndidir. Mənfur qonşularımız olan ermənilərlə üzbəüz yaşayış məntəqəsidir. 1918-1920-ci illərdə erməni daşnakları Andranikin başçılığı ilə Yaycıya hücum edib, kəndi tamamilə yandırıb, əhaliyə divan tutublar. Ermənilər onları ata-baba ocaqlarından didərgin salmağa çalışsalar da, kənd əhalisi düşmən qarşısında mərdliklə dayanıb. Ötən əsrin 90-cı illərinin əvvəllərində də bu kəndin sakinləri böyük müsibətlər çəkiblər. Bütün bu çətinliklərə baxmayaraq, ata-baba yurdlarını tərk etməyiblər. Həmişəki kimi yurda, obaya bağlılıq bu yaşayış məntəqəsini alınmaz qalaya çevirib.











Uzun yol qət etdikdən sonra, nəhayət, kəndin mərkəzinə çatırıq. Burada ilk tanış olduğumuz 82 yaşlı Əhməd Rəhimov söhbət zamanı kənddəki insanların yaşayış səviyyəsindən, adət-ənənələrindən ətraflı söhbət açaraq dedi: “Bala, bu kəndin tarixi keçmişi çox qədimdir. Həm də coğrafi mövqeyi çox əlverişlidir. Ona görə mənfur ermənilər ötən əsrin 90-cı illərinin əvvəlində buranı işğal etmək istəyiblər. O dövrdə ulu öndər Heydər Əliyev Naxçıvana gəlməsəydi, kəndi qoruyub saxlamaq mümkün olmayacaqdı. Xalqın dahi rəhbərə inamı və bu inama görə düşmənlə qorxmadan, çəkinmədən apardığı mübarizə, sonunda düşmənin gücündən üstün oldu. Məhz bu birliyin və inamın nəticəsində ermənilərin cavabı layiqincə verildi”.

Ağsaqqal kənd sakini onu da qeyd etdi ki, bura ucqar dağ kəndi olsa da, dövlətimiz bizim üçün bir vaxtlar xəyalımıza belə gəlməyən şərait yaradıb. İndi yaxşı yaşamaq üçün hər cür şəraitimiz var. Əvvəllər belə deyildi. Ötən əsrin 90-cı illərinin əvvəllərində elə vaxt olub ki, süfrəyə qoymağa çörək tapa bilməmişik. Ancaq torpağa bağlı olan kənd camaatı burada möhkəmləndi, əkib-becərdi. Bu da nəticəsini verdi. İndi kəndimizdə xeyli quruculuq işləri görülüb. Kənd mərkəzi, ikimərtəbəli, yaraşıqlı məktəb binası da tikilib. Məktəb binasının istifadəyə verilməsi uşaqları, valideynləri çox sevindirib. Bütün bunları bizə dövlətimiz edib. Əgər dövlətimizin hərtərəfli dəstəyi olmasaydı, bu kənddə indi yaşayış olmazdı, adamlar da bugünkü kimi torpağa, elobaya bu dərəcədə bağlanmazdılar.

Əhməd dayı ilə söhbətimizə qoşulan bir neçə kənd sakini ilə kəndin yuxarı hissəsinə doğru addımlamağa başlayırıq. Böyük bir təpənin yanına qalxdığımızda gözəl bir mənzərə ilə qarşılaşırıq. Dağların suyu ilə qidalanan və əraziyə xüsusi gözəllik verən gölün suyu xəfif küləyin təsiri ilə ləpələnir, gümüşü rəngli ləpələr insana zövq verir. Sakinlərlə söhbət zamanı onu da öyrənirik ki, “Gümüşgöl” adlanan bu dəryaça ötən əsrin 70-ci illərində ümummilli lider Heydər Əliyevin tapşırığı və xüsusi diqqəti sayəsində inşa olunub. Dəryaçanın tikilməsində məqsəd bu torpaqlara yenidən həyat vermək, onu cana gətirmək, beləliklə də, insanların yenidən öz yurd-yuvalarına daha sıx tellərlə bağlanmasını təmin etmək olub. Bu gün Gümüşgölün sakinlərin kənd təsərrüfatı ilə məşğul olmalarında, onların gün-güzəranının yaxşılaşmasında böyük rolu vardır. Onun hesabına qızmar yay aylarında, Günəşin torpağı qovurduğu vaxtlarda əkin sahələri suvarıla bilir. İndi bu göl xüsusi mühafizə altındadır.

Bir az yuxarıda, kəndi üzük qaşı kimi əhatələyən dağların gözəlliyini heyranlıqla seyr etdiyimi görən Əhməd dayı deyir ki, bir vaxtlar bu dağları elimizin mərd oğulları sipərə çevirib, yurd yerimizi gecəli-gündüzlü qoruyaraq işğalçıların torpağımıza ayaq basmasına imkan verməyiblər. Həmin döyüşlərdə bütün xalq əsgərlərlə bərabər səngərdə vuruşub. Onlarla adam müxtəlif dərəcəli yaralar alıb, şəhidlik zirvəsinə ucalanlar da olub. Gördüyünüz bu yüksəklik Cənnət qayası, ondan irəlidəki Muncuqlu təpədir, bu gün orada Azərbaycan əsgəri Vətənin keşiyində inamla dayanır, üçrəngli bayrağımız qürurla dalğalanır. Bu səbəbdən də hər kəs öz ev-eşiyində rahat yaşayır, təsərrüfat işləri ilə məşğul olur.

Kənddə olarkən Əsgərbəy, Təbəlik, Məşədabbas bulaqları, Ağbulaq çeşməsi, həmçinin onlarla kiçik bulaqdan bir neçəsinə baş çəkmək imkanı oldu. Bu bulaqlar həm də suvarma suyu baxımından böyük rol oynayır. Yuxarı Yaycı kənd məktəbinə Əsgərbəy bulağından ayrıca içməli su xətti çəkilib.

Həmsöhbət olduğum sakinlərlə sağollaşıb kənd mərkəzinə yollanırıq. Son illərdə istifadəyə verilən kənd mərkəzi bu yaşayış məntəqəsinə qəsəbə görkəmi verir. Yuxarı Yaycı kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Mirqasım Eminovla söhbətdə dedi ki, burada ötən illərdə istifadəyə verilən kənd mədəniyyət evi, rabitə şöbəsi, həkim ambulatoriyası, kitabxana kənd sakinlərinin sosial-mədəni həyat şəraitinin yaxşılaşdırılmasına müsbət təsir göstərməklə yanaşı, həm də vaxt itkisinə yol vermədən və əlavə vəsait xərcləmədən müəyyən məsələlərin həllində mühüm rol oynayır. İndi hər bir kənd sakini rayon mərkəzinə üz tutmadan öz işlərini qısa zamanda burada həll edə bilir. Dövlət qurumları hər addımda sakinlərə köməklik göstərir, onların qayğıları ilə maraqlanırlar. İndi kəndin istənilən nöqtəsində rabitə və internet əlaqəsi vardır. Çünki kənd tamamilə telefonlaşdırılıb. Dövlət qayğısı Yuxarı Yaycı sakinləri üçün uzaqları yaxın edib.

Bu kəndin sakinləri təsərrüfata bağlı insanlardırlar. Kəndin 2220 hektar torpaq sahəsi vardır. Buradakı 300 təsərrüfatda 1138 nəfər sakin yaşayır. Əhalinin məşğuliyyəti, əsasən, maldarlıq, arıçılıq və meyvəçilikdir. Kənddəki ailə təsərrüfatlarında 363 iribuynuzlu, 770 xırdabuynuzlu heyvan, o cümlədən 2700 quş və 406 arı ailəsi var. Hər il olduğu kimi, bu payızda da kəndlinin məhsulu boldur, – deyir həmsöhbətim.

Kəndlə tanışlıq zamanı son illərdə istifadəyə verilən məktəbə də baş çəkdik. Burada 100-dən çox şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 20-yə yaxın müəllim məşğul olur. Məktəbdə olarkən müəllimlərlə də həmsöhbət oldum. Onlar təhsil ocağının yetirmələri haqqında danışdılar. Kənddəki tibb məntəqəsində isə öyrəndik ki, məntəqə müdiri Zəli Quliyev uzun illərdir, tibb bacısı Qətibə Nadirova ilə birlikdə kənd adamlarının sağlamlığının keşiyində durur, xəstələrə ilkin tibbi yardım göstərirlər. Yaradılan müasir şərait də onlara daha yaxşı xidmət üçün stimul verib.

***Yuxarı Yaycı gözəlliyi ilə hər kəsi özünə cəlb edir. Dağların bumbuz bulaqları, tərtəmiz havası, min bir dərdin dərmanı olan otları, çiçəkləri və bunlara bir az da xüsusilik verən saf, səmimi insanları yaşayış məntəqəsinin gözəlliyinə gözəllik qatır. Ucqar dağ kəndində, düşmənə gözdağı olan bu yaşayış məntəqəsinin sakinlərinin həyata nikbin baxışları qəlbimizi dağa döndərir. Digər yaşayış məskənləri kimi, bu sərhəd və dağ kəndinin sakinləri də yaradılan şəraitə görə dövlətimizə və onun yorulmadan xalqına xidmət edən rəhbərinə minnətdarlıq edirlər.***

**Ramiyyə ƏKBƏROVA**

İstehsal müəssisələri

# Sahibkarlığa göstərilən qayğını “*Nihad şirniyyat*” istehsal müəssisəsinin timsalında da görmək olar

***Bu gün muxtar respublikamızın hansı bölgəsinə üz tutsaq, sahibkarların hərtərəfli qayğı ilə əhatə olunduğunu görərik. Elə bu qayğının nəticəsidir ki, onların sayı gündən-günə artır. Bunun isə müsbət cəhəti həm də ondadır ki, sahibkarlıq subyektlərinin sayının artması keyfiyyətli məhsul istehsalına şərait yaradır.***

Daxili bazarı yüksəkkeyfiyyətli yerli məhsullarla təmin edən müəssisələrdən biri də Babək rayonunun Badaşqan kəndində fəaliyyət göstərən “Nihad şirniyyat” istehsal müəssisəsidir. Yaxın günlərdə adıçəkilən müəssisəyə baş çəkdik. Sahibkar Habil Babayevlə həmsöhbət olduq. Söhbət zamanı sahibkar dedi ki, 2013-cü ildə qurulmuş bu müəssisəyə Sahibkarlığa Kömək Fondundan 26 min manat kredit dəstəyi də göstərilib.

Müsahibimiz onu da qeyd etdi ki, əvvəllər 2-3, bu gün isə onlarla müxtəlif çeşiddə məhsul istehsal olunur. Burada, əsasən, kəllə qənd, noğul, nanəli konfet, lokum və digər şirniyyat məhsullarının istehsalına üstünlük verilir. Bu illər ərzində müəssisənin məhsulları yerli bazarda özünə layiqli yer tuta bilib və həmin məhsullar artıq bazarda özünə kifayət qədər alıcı toplayıb. Daxili bazarda adıçəkilən şirniyyat növlərinə olan tələbatı ödəmək məqsədilə müəssisədə istehsal olunan məhsullar müxtəlif çəkilərdə qablaşdırılaraq nəinki muxtar respublika və onun rayonlarında, hətta ölkəmizin paytaxtı Bakı şəhərində də satışa çıxarılır. “Nihad şirniyyat” müəssisəsində İran İslam Respublikasının bu sahə üzrə qabaqcıl təcrübəyə malik firmalarının istehsalı olan müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb.

Habil Babayev sonda onu da dedi ki, istehsal etdiyimiz məhsullara bu qədər tələbatın olacağını gözləmirdik. Deməli, insan əməyinə lazımi qiymət verildikdə, fəaliyyətinə geniş şərait yaradıldıqda uğur qazanmaq çətin olmur. Digər sahibkarlar kimi, biz də dövlət qayğısından bəhrələnərək müəssisənin istehsal sahələrini genişləndirməyə hazırlaşırıq.




Söhbətimizdən belə qənaətə gəldik ki, muxtar respublikada sahibkarlığın inkişafı üçün yaradılan şərait, onlara göstərilən qayğı istər sahibkarlara, istərsə də alıcılara böyük töhfədir. Qayğı artdıqca yeni sahələrin yaradılması zərurəti meydana çıxır ki, bu da, öz növbəsində, yeni iş yerlərinin yaradılması ilə nəticələnir. Bu qayğıdan səmərəli istifadə etmək isə insanların öz əlindədir. Görünür ki, Habil Babayev sahibi olduğu istehsal müəssisəsinin kollektivi ilə birlikdə bu həqiqəti dərindən dərk edib.

Bu gün muxtar respublikamızda yeni sahibkarlıq subyektlərinin yaradılması, əvvəl mövcud olanların daha da gücləndirilməsi, iqtisadi imkanların artırılması dövlətin daim maraq dairəsində saxlanılır. Sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, vergi güzəştlərinin, güzəştli kreditlərin verilməsi muxtar respublikada fəaliyyət göstərən sahibkarları bundan sonra da öz fəaliyyətlərini genişləndirməyə, keyfiyyətli məhsul istehsalına ruhlandıracaq.

**Gülcamal TAHİROVA**

Səhiyyə

## Həkim-xəstə ünsiyyəti müalicə prosesində mühüm rol oynayır

***Əhalinin sağlamlığının qorunmasında həkimin, onun peşəkar fəaliyyətinin və mənəvi mövqeyinin böyük rolu vardır. Buna görə də tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, səhiyyə işçilərinə ictimai etimadı doğrultmaq üçün etik davranış qaydalarının müəyyən olunması vacib və əhəmiyyətli məsələlərdən biridir. Bütün bunlar nəzərə alınaraq bu il iyunun 29-da Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən "Həkimlərin etik davranış qaydaları" hazırlanaraq təsdiq edilib və avqustun 1-dən icrasına başlanılıb. Bu barədə Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva ilə müsahibəni oxuculara təqdim edirik.***

***– Samrat həkim, "Həkimlərin etik davranış qaydaları"nın icrasına nəzarət sizə həvalə olunub. Bu istiqamətdə hansı işlər görülüb?***

– Bu gün qürurla deyə bilərik ki, muxtar respublikamızda səhiyyənin inkişafı üçün hərtərəfli işlər görülüb. Belə ki, elə bir ucqar kənd, qəsəbə yoxdur ki, orada əhaliyə tibbi xidmət göstərən və yeni tikililərək istifadəyə verilən tibb müəssisəsi olmasın. Hazırda Naxçıvanda müasir tələblərə cavab verən, dünya standartlarına uyğun maddi-texniki bazası olan xəstəxanalarda bütün növ tibbi xidmətlərlə əhalinin sağlamlığının keşiyində dayanılır. Bütün bunlar həkim-xəstə münasibətlərinə bilavasitə müsbət təsir edir və vətəndaşların tibbi xidmətdən və tibb işçilərindən razı qalmasına şərait yaradır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən "Həkimlərin etik davranış qaydaları" işlənib hazırlanaraq təsdiq olunub. Qaydaların yazılı və elektron mətni hər bir səhiyyə müəssisəsinə göndərilərək tibb işçilərinin məlumatlandırılması təmin edilib. Artıq hər bir tibb işçisinin praktik fəaliyyəti yeni qaydalar çərçivəsində qiymətləndirilir. Eyni zamanda maarifləndirici tədbirlər də davam etdirilir. Belə ki, qısa müddət ərzində Naxçıvan Muxtar Respublika Xəstəxanasında, Şərur, Sədərək, Ordubad, Babək və Culfa Rayon Mərkəzi xəstəxanalarında "Tibbi etika və deontologiya" mövzusunda maarifləndirici tədbirlər keçirilib. Həmin tədbirlərdə qeyd olunub ki, həkim-xəstə münasibətləri həkimlik etikası və bioetikanın başlıca problemidir. Həkimin etibarlılığı, sənətinə vicdanla yanaşması, diqqətli olması, xeyirxahlığı, xəstəyə fərdi yanaşması, onun psixoloji xüsusiyyətlərini nəzərə alması, xəstələrin müalicə və diaqnostikasında kliniki və deontoloji əsaslandırması, konfidensiallığı müalicənin mühüm şərtləri sırasındadır. Bu iş hazırladığımız qrafikə əsasən mütəmadi davam etdiriləcəkdir.

***– Deontologiyanın bir elm kimi yenidən aktuallaşması nə ilə əlaqədardır?***

– Deontologiya, əslində, bütün insan cəmiyyəti yaranandan bəri aktuallığını itirməyən yeganə elm sahəsidir. O, tibb işçisi ilə xəstə arasında olan münasibətləri, tibb işçisinin nümunəvi davranışını öyrənən bir elm kimi bu gün səhiyyə sistemində xüsusi aktuallığa malikdir. Hər bir tibb işçisi deontologiyanın nə olduğunu bilməli və ona riayət etməlidir. Çünki xəstə ilə qarşılıqlı səmimi münasibətlər yaradıldıqda müalicə prosesində uğur qazanılar. "Həkimlərin etik davranış qaydaları" hazırlanıb icraya götürülərkən məhz bu amillər nəzərə alınıb.

Qaydalar səhiyyə qanunvericiliyini, insan hüquqlarını, demokratik prinsipləri və ümumi etik davranışları rəhbər tutur. Odur ki, həkim öz qərar və hərəkətlərinə görə tam məsuliyyət daşıyır. Həkim öz vəzifəsini xəstənin yaşından, cinsindən, irqindən, milliyyətindən, dini əqidəsindən, sosial vəziyyətindən, siyasi baxışlarından, vətəndaşlığından, maddi vəziyyətindən asılı olmayaraq yerinə yetirməlidir. Bu qaydaların tələbləri, eyni zamanda orta tibb işçilərinə də şamil olunur.

***– Qaydaların tətbiq edilməsinin əsas məqsədi nədir?***

– Əvvəlcə onu bildirim ki, bu qaydalar muxtar respublika ərazisində mülkiyyət formasından asılı olmayaraq fəaliyyət göstərən bütün səhiyyə işçilərinə şamil olunur. Əsas məqsəd səhiyyənin nüfuzunun artırılmasından, səhiyyə müəssisələrinə və həkimlərə ictimai etimadın yüksəldilməsindən, həkimlərin fəaliyyətində maraqların toqquşmasının qarşısının alınmasından, həkimlər tərəfindən etik davranış qaydalarına əməl olunmasının təmin edilməsindən, onların fəaliyyətinin qiymətləndirilməsinə vətəndaşların təsiri imkanlarının genişləndirilməsindən ibarətdir. Əhalinin sağlamlığının qorunması dövlətin və cəmiyyətin xüsusi qayğısındır. Bu sosial məsələnin həyata keçirilməsində həkimin, onun peşəkar fəaliyyətinin və mənəvi mövqeyinin böyük rolu vardır.

Həkim öz qərar və hərəkətlərinə görə tam məsuliyyət daşıyır. Xəstələrə göstərdiyi yardımın keyfiyyətinin artırılması məqsədilə həkim tibb elminin son nailiyyətlərindən istifadə edərək, öz bilik və bacarıqlarını daim təkmilləşdirməli, vəzifələrinin icrası ilə bir araya sığmayan və onun adına xələl gətirəcək, habelə səhiyyənin nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir.

Həkim pasiyentin şərəf və ləyaqətinə, şəxsi sirr hüququna hörmət etməli, onun və ailə üzvlərinin şəxsi işlərinə qarışmamalı, ona səmimi münasibət göstərməlidir. Təxirəsalınmaz tibbi yardım göstərilməsi halları istisna olmaqla, pasiyentin öz razılığı ilə həkimi, o cümlədən müalicə həkimini və müalicə-profilaktika müəssisəsini seçmək hüququna hörmətlə yanaşılmalıdır. Pasiyentin müayinənin nəticəsi, xəstəliyin diaqnoz və proqnozu, müalicə üsulları və bununla bağlı risk dərəcələri, aparılmış müalicənin nəticəsi haqqında məlumatlar da daxil olmaqla, sağlamlığının vəziyyəti barədə məlumat almaq hüququ vardır.

***– Bəs həkim-xəstə münasibətlərində, bütövlükdə, tibb işçilərinin rolu nədən ibarətdir?***

– Deontologiya münasibətlərinin möhkəmləndirilməsində aparıcı rolu həkim oynayır. Həkim xəstəni müayinə edir, diaqnoz qoyur, xəstəliklə bağlı müalicələr aparır. Həkimin təyinatlarını yüksək keyfiyyətlə həyata keçirmək üçün tibb işçisindən ciddi intizam, savad, həkim tapşırıqlarını dəqiq yerinə yetirmək kimi vəzifələr tələb olunur.

Deontologiyanın elementlərindən biri həkimin göstərişlərini keyfiyyətli və vaxtlı-vaxtında yerinə yetirməkdir. Öz sənətini ürəkdən sevən, ona sadiq olan hər bir tibb işçisi insanların həyatını xilas etmək üçün ona kömək göstərməyə hər an hazır olmalıdır. Bunları həyata keçirmək üçün tibb işçisi öz vəzifə borcunu başa düşməli, xəstənin şikayətlərini yüngülləşdirmək üçün bütün lazımi tədbirləri görməlidir.

Tibb bacısı xəstədə həkimə inam hissini artırmalı, xəstə ilə tez-tez təmas yaratmalıdır. O, həmişə xəstələrin arasında olur, onun xəstələrə yaxın, isti münasibəti psixoterapevtik təsir edir. Unutmaq olmaz ki, insan xəstələnən zaman daha kövrək, daha həssas olur. Qayğıya, xoş sözə ehtiyac duyur, ona qulluq edən tibb bacısından diqqət, xoş rəftar gözləyir. Bunun üçün tibb bacısı danışığına, geyiminə, hərəkətlərinə fikir verməli və təmkinli olmalıdır.

Nəzakətli və mehriban rəftar, xoş təbəssüm tibb bacısının öz xəstələrinə qayğısının simvoludur. Tibb bacısı, eyni zamanda həkim sirrini saxlamağı da bacarmalıdır. Məsələn, xəstəliyi ölümlə nəticələnəcək xəstəyə ümid verərək onu sağalacağına inandırmaq da bu qəbildən olan sirlərdən hesab edilir. Bu yalanı "müqəddəs yalan" adlandırırlar. Həkim və tibb bacısının xəstə ilə ünsiyyəti xəstənin sağalmağa inamını artırır.

***– Bəzən həkim və tibb bacısının xəstənin yanında onun doğmaları ilə asta danışığı, sirli baxışları, sifətlərinin ifadəsi də xəstədə öz sağlamlığı barədə şübhələr yaradır.***

– Təbabətdə yatrogen xəstəliklər adlandırılan xəstəliklər vardır. Bu xəstəliklər tibb işçisinin xəstələrə düşünmədən dediyi sözlərdən əmələ gəlir. Belə xəstələri müalicə etmək çox çətin olur. Qaydalara əsasən həkim səhvlərinə yol verilməsi və ya müalicə prosesində gözlənilməz ağırlaşmalar zamanı xəstə və təcrübəli həmkarlar məlumatlandırılmalı, bu barədə göstərişləri gözləmədən zərərli nəticələrin aradan qaldırılmasına yönəldilmiş hərəkətlərə başlanılmalıdır. Lakin heç bir halda o, bədbinliyə düçar edilməməlidir. Xəstəni bilərəkdən evtanaziyaya, yəni ölümünü sürətləndirməyə meyil edirən şəxs qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır. Tibb işçisi xəstənin vəziyyəti ağırlaşan zaman öz həyəcanını büruzə verməməlidir. Başqa şöbədə olan hadisə haqqında danışmamalıdır. Əks-təqdirdə xəstədə qorxu, həyəcan yarada bilər.

***– Tibb işçisinin zahiri görünüşü, geyimi, hətta danışığı, mimikası da xəstəyə təsir edir.***

– Doğrudur. Tibb işçiləri bilməlidirlər ki, xəstələr onun geyiminə də fikir verirlər. Təmiz, ütülü ağ xalatda, sifətində təbəssüm, savadlı, qabiliyyətli tibb bacılarını xəstələr daha çox sevir və onlara daha çox inanırlar. Belə görkəm xəstəyə psixoterapevtik təsir edir.

Əksinə, səliqəsiz geyinmiş çirkli xalatda olan tibb bacıları xəstələr tərəfindən yaxşı qarşılanmır. Tibb bacısı bilməlidir ki, işə gələn zaman kəskin iyli ətirlərdən istifadə etmək allergiyası olan xəstələrdə boğulma tutmalarına və onların vəziyyətinin pisləşməsinə səbəb ola bilər.

Bir də görürsən ki, tibb işçisi xəstə ilə məşğul olmaq əvəzinə mobil telefonla uzun-uzadı şəxsi söhbətlə məşğuldur, yaxud sosial şəbəkələrdədir, başı telefon oyunlarına qarışıb. Odur ki, belə hallar nəzərə alınaraq səhiyyə müəssisələrində iş zamanı smartfon telefonlardan istifadə qadağan edilib.

Tibb işçisi həmişə öz həmkarları ilə hörmətlə rəftar etməli, yoldaşları ilə mehriban olmalı, yüksək səslə danışmamalı, lazım gələrsə, onları müdafiə etməlidir. Öz praktik işində deontologiyanın prinsiplərinə riayət edən bacarıqlı tibb işçiləri xəstələr tərəfindən həmişə sevilir.

Tibb işçisi xəstənin halını anlamalı, xəstə ilə münasibətində təlqin etməlidir ki, ağrı xəstəlik deyil, vücudun həyəcan təbilidir. O, orqanizmin hansısa hissəsində problemin olması ilə bağlı xəbərdarlıq siqnalıdır və sizi qorumağa kömək edir. Önəmlisi isə heç bir ağrı daimi deyil. Ona görə də ən dözülməz ağrının, çarəsiz hesab edilən xəstəliyin belə, sizi ümidsizliyə sürükləməsinə yol verməyin, sadəcə, güclü olun və hər şeyin yaxşı olacağına inanın!

***– Müsahibə üçün sağ olun!***

**Hüseyn ƏSGƏROV**
*Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti*

***Muxtar respublikamızda təhsilə göstərilən dövlət qayğısı bu sahədə əldə olunan uğurları ilbəil artırır. Gənclərin elm-təhsil yollarında inamla addımlaması, gələcək cəmiyyət quruculuğunda Azərbaycanın daha da qüdrətli olması yolunda onlar üçün hər bir imkan yaradılıb.***

*Təhsil millətin gələcəyidir*

## Şahbuz rayonu üzrə ali məktəblərə qəbulun nəticələri sevindiricidir

Şahbuz rayonu da təhsildəki nəticələri ilə ənənəvi olaraq bu il də yüksək nailiyyətlər qazanıb. Rayonda istifadəyə verilən yeni təhsil ocaqları, yeniləşən təhsil infrastrukturu şagirdlərin daha yaxşı oxumasına, onların yüksək balla ali məktəblərə qəbul olmasına şərait yaradıb. Cari ilin göstəricilərinə görə də Şahbuz rayonu üzrə ali məktəblərə qəbulun nəticələri sevindiricidir. Belə ki, bu il rayon üzrə 106 abituriyent sənəd verib, onlardan 70-i tələbə adını qazanıb. Məzunlardan 19 nəfəri 500, 4 nəfəri isə 600 baldan yuxarı nəticələr göstərib.

Yeganə Allahverdiyeva qəbul imtahanında 635 bal toplayıb. Bu, cari ildə Şahbuz rayonu üzrə ən yüksək nəticədir. O, Sələsüz kənd tam orta məktəbinin məzunudur. Azərbaycan Tibb Universitetinə daxil olub. Yeganə ziyalı ailəsində böyüyüb. Onunla söhbətdə bildirir ki, ən böyük arzusu həkim olmaqla insanların sağlamlığı keşiyində durmaqdır. Amma tələbə adını qazanmaqla iş bitmir.



Qarşıda daha məsuliyyətli bir dövr vardır. Daha çox oxumalı, öz üzərimdə işləməli, ən azı iki xarici dil öyrənməliyəm. Çalışacağam ki, mənə dərs demiş müəllimləri bundan sonra da sevindirəm, – deyir Yeganə.

Haldun İsgəndərov Kükü kənd tam orta məktəbini bitirib. O, sadə kəndli ailəsində böyüyüb. 627 balla Bakı Dövlət Universitetinin Kompüter elmləri ixtisasına daxil olub. O, təhsilini ingilis dilində alacaq. Dediyinə görə, hələ kiçik yaşlarından kompüter texnologiyasına maraq göstərib. Söhbətində bildirir ki, gələcəkdə yüksəkixtisaslı kompüter mütəxəssisi olmaq üçün çox çalışmalıdır. Haldun qazandığı uğurlara görə ona dərs demiş müəllimlərinə minnətdardır.



Digər bir həmsöhbətim Aysel Nəbili Şahbuz şəhər 1 nömrəli tam orta məktəbi bitirib. Qəbul imtahanlarında 622 bal toplayıb. Naxçıvan Dövlət Universitetinin İngilis dili müəllimliyi ixtisasına daxil olub. Bu dilə marağı onda orta məktəb müəllimi oyadıb. Aysel deyir ki, ingilis dili dünya dilidir. Bütün ziyalıların bu dili bilməsi vacibdir. Ona görə də gələcəkdə ingilis dilini daha dərindən öyrənməyə və bu sahə üzrə yaxşı mütəxəssis olmağa çalışacağam.



Könül Əliyeva da Şahbuz şəhərindəndir. Ziyalı ailəsində dünyaya göz açıb. Buradakı 1 nömrəli tam orta məktəbi bitirib. O, 605 balla Naxçıvan Dövlət Universitetinin Müalicə işi ixtisasına daxil olub. Həkim olmaq onun həm özünün, həm də valideynlərinin arzusudur. Könül deyir ki, inkişaf edən ölkəmizin, muxtar respublikamızın savadlı tibbi kadrlara ehtiyacı vardır. Savadlı həkim olmaq üçün, ilk növbədə, vətənpərvər olmağın, insanların sağlamlığı keşiyində durmağın zəruriliyini yaxşı bilirəm. Ölkəmizdə insanların sağlamlığına çox ciddi diqqət yetirilir. Bunun üçün mən də gələcəkdə daha yaxşı oxumalıyam.



Bəli, gənclər gələcəyimizin etibarlı təminatçılarıdır. ***"Hər bir gənc müstəqil Azərbaycanın gələcəyi üçün məsuliyyət daşımalı, ana dilini və Vətən tarixini dərindən öyrənməli, milli dəyərlərimizə sahib çıxmalı, özünü mənsub olduğu xalqa layiqli vətəndaş kimi hazırlamalıdır".*** Bu il avqustun 21-də muxtar respublikanın ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun gənclərə xitabən dediyi bu fikirlər onlarda daha yüksək uğurlar üçün dərin inam hissləri yaradıb. Bu nikbinliyi qəbul imtahanlarında qazandıqları əhəmiyyətli uğurlarla həmyaşıdlarından bir addım öndə olan şahbuzlu tələbələrlə söhbətdə bir daha gördük. Biz də, öz növbəmizdə, bu gənclərə gələcəkdə harada olmalarından, hansı vəzifə tutmalarından asılı olmayaraq əsl azərbaycanlı kimi yaşamağı və işləməyi arzu edirik. Yolunuz açıq olsun!

**Əli CABBAROV**

## Ətiq Ordubadi haqqında nə bilirik?

Tarixdən bizə məlum olduğu kimi, hələ orta əsrlərdən Ordubadda xəttatlar yaşayıb-yaradıblar. Xüsusilə XVI əsrdə bu sənət növü özünün daha yüksək inkişaf mərhələsinə çatıb. Səfəvilər dövründə məşhur xəttatlar olub ki, onlardan biri də Ətiq Ordubadidir.

Doğrudur, o dövrdə Ordubadda çox sayda xəttat olub. Ancaq Ətiq Ordubadi qədər sənətinin zirvəsində olan bir xəttatın adına tarix səhifələrində rast gəlinmir.

Həmin dövrdə bir çox xəttatlar yazılarını məscid divarlarında, gəc üzərində oyma şəklində işləyiblər. Sonralarsa parça və kağız üzərində yazıblar. Bundan başqa, ən çox zinət əşyaları – mis, qızıl, gümüş üzərində xəttatlıq ediblər.

Ordubad şəhər sakini Cabir Cabbarovla söhbət zamanı bildirdi ki, bölgədə bu cür xəttatlıq nümunələrinə çox rast gəlinir. Bunlar içərisində dahi şairimiz Nizami Gəncəvinin "Xəmsə"sini xüsusi qeyd etmək lazımdır. Bu kitabda xəttat nəstəliq xətt növü ilə əlyazma yaradıb və kitaba gözəl bədii tərtibat verib. Bu kitabı 1978-ci ildə mərhum Muxtar Rəsulov evlərini sökərkən divarın içərisindən tapıb və Azərbaycan Əlyazmaları Fonduna təhvil verib.

Həm əlyazmalar şəklində, həm də daşbasma formasında olan bir çox kitablar məhv edilib. Ətiq Ordubadinin xəttatlıq nümunələri Ordubadda qalmasa da, Yaxın Şərq ölkələrində üç yüz ildən artıqdır ki, tanınır. Hələ Osmanlı imperiyası dövründə onun "Tuğra" formasında yazdığı "Qurani-Kərim"in ilk ayəsi "Bismillahir Rəhmanir Rəhim" İstanbulda kəsilən qızıl onluq pulların üzərində qabartma şəklində dörd yüz il yaxın bir müddətdə zərb olunub və dünyanın hər yerinə yayılıb. Ondan sonrakı dövrdən bu günə qədər hələ də Türkiyədə, İranda çap olunan kitabların başlıqlarında bu yazı forması işlədilir. Hətta dekorativ məmulatların üzərində də Ətiq Ordubadinin bu yazı forması verilir. Demək olar ki, "Tuğra" formasının ən gözəl şəklini də məhz Ətiq Ordubadi yaradıb.

**Səbuhi HÜSEYNOV**

## Musiqi sənətinin özü qədər qədim xalq çalğı alətlərimiz

***Musiqi sənəti hər bir xalqın mədəniyyət tarixinin tərkib hissəsini təşkil edir. Bu sənətin kamala yetməsində başlıca rol oynayan musiqi alətlərinin yaranması da, təbii ki, çox qədim dövrlərə gedib çıxır. Musiqi alətləri ilk əvvəllər ibtidai formada olub, insan cəmiyyətinin sonrakı mərhələlərində mədəniyyətin, musiqi və ifaçılıq sənətinin inkişafı ilə əlaqədar böyük bir təkamül yolu keçib. Musiqi alətlərinin meydana gəlməsi ilə bağlı bir sıra fərziyyələr mövcuddur. Belə ehtimal olunur ki, ilk əvvəl onlar siqnal alətləri rolunu oynayıb, bu və ya digər dərəcədə ibtidai insanın əmək prosesi ilə bağlıdır. Lakin arxeoloji qazıntılar sübut edir ki, hələ insan cəmiyyətinin erkən inkişaf mərhələsində sırf estetik funksiyaları yerinə yetirən musiqi alətləri də mövcud olmuşdu. Bəzi musiqi alətlərimiz öz qədim forması ilə bu günümüzə gəlib çıxdığı halda, bəziləri inkişaf prosesi keçərək xeyli dəyişib.***



Musiqi alətlərini şərti olaraq xalq çalğı alətlərinə və professional musiqi alətlərinə ayırırlar. Bu məqalədə xalq çalğı alətləri haqqında danışacağıq. Onlar xalq tərəfindən hazırlanıb məişətdə, o cümlədən bayramlarda, toylarda, müxtəlif mərasimlərdə geniş işlədilir. Arxeoloji qazıntılar zamanı əldə olunmuş materiallar respublikamızın ərazisində çox qədimdən musiqi alətlərinin istifadə olunduğunu sübut edir. Azərbaycanın qədim musiqi alətləri haqqında məlumatlara orta əsr şairlərinin əsərlərində də rast gəlirik. Nizami Gəncəvinin məşhur "Xəmsə"sində musiqi yaradıcılığının ayrı-ayrı janrları, müxtəlif çalğı alətləri və ifaçılıq sənəti haqqında maraqlı fikirlər vardır. Onların bəziləri ilə yaxından tanış olaq.

***Tar*** əsas Azərbaycan xalq çalğı alətlərindən biridir. Bu alətin xalq arasında geniş şöhrət qazanması milli musiqimizin zənginliyi, qədimliyi və musiqi sənətimizin klassik janrı olan muğamın varlığı ilə sıx bağlıdır. Xalq təfəkkürünün, arzu və istəklərinin poetik ifadəsi şəklində təzahür edən muğamlar inkişaf etdikcə, tar da təkmilləşərək və bugünkü səviyyəyə gəlib çıxıb.

Əvvəllər tar 5 simli olub, diz üstündə ifa edilərdi. XIX əsr Azərbaycan musiqi sənətinin görkəmli nümayəndəsi Əsəd Mirzə Sadıq, el arasında Sadıqcan kimi tanınan şəxs bu alətin konstruksiyasını elmi-akustik prinsiplər əsasında köklü surətdə təkmilləşdirərək, onun simlərinin və pərdələrinin sayını artırıb, sinə üstündə ifa etmək üsulunu tətbiq edib. Sadıqcanın bu islahatı qısa zamanda Orta Asiya tarzənləri tərəfindən qəbul edilib.

Hazırda tar 11 sim və 22 pərdəli musiqi alətidir. Onda rəngarəng və ritmik melodiyalar, habelə texniki passajlar ifa etmək mümkündür.

Onu da qeyd edək ki, tarın ifaçılıq imkanları təkcə xalq çalğı alətləri orkestri ilə məhdudlaşmır. Professional musiqimizin banisi Üzeyir Hacıbəyov bunu nəzərə alaraq "Koroğlu" operasında onu ilk dəfə simfonik orkestrə daxil edib.

Azərbaycan bəstəkarları öz yaradıcılıq təcrübəsində doğma musiqi ənənələrinə, onun janr və formalarına istinad edərək tarın ifaçılıq imkanlarını yüksək qiymətləndirmiş, öz əsərlərində bunu təbliğ etmişlər. Belə əsərlərə misal olaraq H.Xanməmmədovun "Tar ilə simfonik orkestr üçün konsert", S.Rüstəmov və S.Ələsgərovun bəstələdikləri tar ilə xalq çalğı alətləri orkestri üçün konsertləri, A.Rzayevanın "Tar üçün pyeslər" və sairi göstərmək olar.

***Kamança*** zəngin melodik imkanlara malik musiqi alətidir. Nizaminin "Xosrov və Şirin" poemasından məlum olur ki, bu alət hələ o dövrdə Azərbaycanda geniş yayılıbmış.

Qədim kamança cəmi bir simdən ibarət olub. Üçsimli kamançanın tarixi isə XVII əsrə təsadüf edir. Hazırda istifadə edilən kamança 4 simlidir. Ondan xalq çalğı alətləri orkestrində və ansambllarda əsas melodiyanı aparan solo alət kimi istifadə edirlər. Dahi bəstəkarımız Üzeyir Hacıbəyov kamançaya yüksək qiymət verərək yazırdı: " Uzun səsli, telli musiqi alətlərinin yeganə nümayəndəsi kamançadır. Kamançada ifa olunan musiqi səscə daha mükəmməl və insanın səsinə daha yaxındır. Kamança melodik alətlərdən ən gözəlidir".

Kamança böyük səs əlvanlığına malikdir. Simlərin hər birində özünəməxsus səs çaları var. Bəzi xalq çalğı alətlərimizdə ştrixlərin səsləndirilməsi üçün mizrab üsullarından istifadə edildiyi halda kamançada kamandan istifadə olunur. Bu alət orkestrdə, demək olar ki, tar aləti ilə bərabərhüquqludur. Uzun illər boyu Azərbaycan xalq çalğı alətləri orkestrinə dirijorluq etmiş bəstəkar Süleyman Ələsgərov orkestr üçün yazdığı bir sıra əsərlərində kamançanın ifaçılıq imkanlarını nəzərə alaraq ifadəli kamança partiyaları yaratmağa nail olub.

***Qanun*** ifaçılıq imkanlarına görə orkestrdə mühüm yer tutan musiqi alətlərindən biridir. O, peşəkar musiqiçilərin alətidir. Virtuozluq tələb edən əsərlər bu alətdə xüsusilə böyük ustalıqla ifa olunur. Onu ifa etmək, ilk baxışda göründüyü kimi də asan deyil. Mahir qanun ifaçısı olmaq üçün onun ifaçılıq texnikasının incəliklərini mənimsəmək başlıca şərtdir. Əsasən müşayiətçi alət olan qanunda solo ifa çalğıçıdan böyük zəhmət və virtuozluq tələb edir. Musiqişünasların fikrincə, qanun onun tembrinə uyğun alətlərlə – saz, ud və sair ilə birlikdə ifa ediləndə səslənmə yaxşı alınır.

Nizami Gəncəvi, Əssar Təbrizi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli və digər klassiklərin əsərlərində qanundan bəhs edilir. XII əsrdə yaşayıb-yaratmış şairə Məhsəti Gəncəvi bu alətin mahir ifaçısı olub.

Qanun dərsləri Naxçıvanda uşaq musiqi məktəblərində, kolleclərdə, eləcə də ali musiqi təhsili ocaqlarında tədris edilir.

***Ud.*** Uzunömürlü musiqi alətlərindən biri də uddur. Bu alət qədim zamanlardan başlayaraq bir sıra Şərq ölkələrində də geniş yayılıb. Ud haqqında ilk məlumatlara o dövrün alimlərindən olan İshaq İbrahim oğlu və Əbu Nəsr Fərabinin əsərlərində rast gəlinir. Qədim udun 4 simi olub. Müasir udun isə 5 cüt, 1 tək olmaqla, cəmi 11 simi var. Alətin qolunda pərdələr yoxdur. O ifa olunarkən sinəyə sıxılır, çanağının kənarı isə dizə söykənir.

Musiqişünas Səfiəddin Urməvi isə bu aləti təkmilləşdirib, onun ifaçılıq imkanlarını genişləndirib. O, həmçinin dövrünün mahir ud ifaçısı kimi də tanınıb.

***Saz.*** Xalqımızın xoş duyğularının, zərif və kövrək hisslərinin tərcümanı olan sazın əsl ifaçıları aşıqlardır. O, əsasən, solo-vokal ifasını müşayiət edən musiqi alətidir. Saz türk dünyasının rəmzlərindən biridir. Qədim türkdilli xalqlarda ozan, varsaq kimi tanınan sənətkarlar bugünkü aşığın əcdadları sayılır. Eləcə də Nizami Gəncəvinin əsərlərində adıçəkilən setar bu alətin sələfi hesab edilir. Xaqani Şirvaninin əsərlərində birsimli, Füzulinin "Leyli və Məcnun" poemasında isə ikisimli sazdan bəhs olunur. Belə sazların quruluşu çox sadə olub. Bu alət, əsasən, tut və qoz ağacından, mizrabı isə gilas ağacının qabığından hazırlanır.

Saz uzun müddət orkestrlərdə çox nadir hallarda çıxış edib. Səbəb isə həmin illərdə saz ifaçılarının Avropa not sisteminə öyrəşə bilməməsi idi. Buna görə də bəstəkarlarımız orkestr üçün əsərlər yazarkən saz partiyasından çox az-az istifadə edirdi. Yalnız 1938-ci ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə "Arşın mal alan" musiqili komediyasını müşayiət edən xalq çalğı alətləri orkestrində ilk dəfə olaraq saz not dilində danışdı və orkestrə yeni təravət gətirdi. Bundan sonra isə bəstəkarlar öz partiyalarında bu alətə yer verməyə başladılar. Hazırda da bu ənənə davam etməkdədir.

***Dəf*** Azərbaycanın qədim zərb alətlərindəndir. Bu musiqi alətindən hələ XII-XIII əsrlərdə şənlik məclislərində istifadə olunması bədii ədəbiyyatdan da məlumdur. Bununla yanaşı, Təbriz miniatür məktəbi rəssamlarının musiqi məclislərini təsvir edən əsərlərində də dəf alətinə rast gəlinir.

Dəf aləti bir üzü açıq, o biri üzünə dəri çəkilmiş dairəvi ağac gövdədən ibarətdir. O, xüsusilə ritmik muğamların ifasında təsnif zamanı nisbətən sərbəst rola malik olur, yəni solo aləti kimi çıxış edir.

***Tütək.*** Vaxtilə ancaq çobanların, sonralar isə həvəskarların sevimli musiqi aləti kimi şöhrət qazanmış tütək indi peşəkar ansambl və orkestrlərdə özünə layiqli yer tutub. Keçmişdə Azərbaycanın şəhərlərində tütəkdə çalan peşəkar ifaçıların kiçik ansamblları mövcud idi. Onlar müxtəlif bayram şənliklərində iştirak edirdilər. Bir çox küçə tamaşaları, xalq oyunları tütəklə müşayiət olunurdu. Sirk tamaşalarının başlanmasını da tütəklə xəbər verirdilər.

İbtidai tütək barmaq dəlikləri olmayan adicə borudan ibarət olub. Sonralar insanlar heyvanların sümüklərindən, dişlərindən də tütək düzəltməyə başlayıblar. Dulusçuluq sənətinin inkişafı ilə əlaqədar olaraq tütəklərin yandırılmış gildən düzəldilməsi də tarixə məlumdur. Zaman keçdikcə ifaçılar bu alətdən istifadə edərkən qarşıya çıxan çətinlikləri aradan qaldırmaq zərurəti ilə qarşılaşıblar. Beləliklə, burada müxtəlif yüksəklikdə səslər əldə etmək məqsədilə yeni üsullar axtarır, nəhayət, tütəkdə dəliklər açılır. Zamanla bu dəliklərin sayı 7-yə çatır.

Musiqi alətlərimizdən tutmuş adət-ənənələrimizə kimi nə varsa hamısı bizim mədəniyyət nümunələrimiz, mənəvi sərvətimizdir. Əsas, bu sərvətə sahib olmaq deyil, ona sahib çıxmaqdır. Zəngin musiqi irsimiz, dəyərli xalq çalğı alətlərimiz lazımi səviyyədə təbliğ edilməsə, ifaçılıqda istifadə olunmasa, bu, zaman-zaman onların unudulması ilə nəticələnə bilər. Bu baxımdan qeyd etmək lazımdır ki, notlu orkestr yarandığı gündən xalq çalğı alətlərindən istifadə Azərbaycan bəstəkarlarının diqqət mərkəzindədir. Onların əksəriyyəti orkestr üçün əsərlər yazıb, yazmağa da davam edirlər. Görkəmli bəstəkar Dmitri Şostakoviç Azərbaycan bəstəkarlarının xalq çalğı alətləri orkestri üçün bəstələdikləri əsərlərə yüksək qiymət verərək yazırdı: "Sevindirici haldır ki, Azərbaycan bəstəkarlarının yaradıcılığına xas olan zövq zənginliyi və əsl bədiilik kimi gözəl məziyyətlər xalq çalğı alətləri orkestrində də öz əksini tapmışdır".

**✍ Fatma BABAYEVA**

*Sağlam həyat*

## Fiziki imkanları məhdud insanlar ev şəraitində necə məşq edə bilərlər?

*Muxtar respublikamızda idmanın bütün sahələri özünün inkişaf dövrünü yaşayır. Bunun nəticəsidir ki, son illər idmançılarımız dünya və Avropa birinciliklərində, beynəlxalq arenalarda Azərbaycanı layiqincə təmsil edirlər. Bu gün muxtar respublikanın Gənclər və İdman Nazirliyinin, eyni zamanda Naxçıvanda fəaliyyət göstərən federasiyaların qarşısında duran əsas məqsəd bu tendensiyanı davam etdirmək, ildən-ilə uğurların sayını artırmaqdır.*

İdman elə bir sahədir ki, yaşından, həyat tərzindən, işindən asılı olmayaraq, hər kəs bu sahəyə maraq göstərir. Fiziki imkanları məhdud insanlar üçün isə bu, xüsusi əhəmiyyət kəsb edir. Bəs onlar ev mühitində idmanla necə məşğul ola bilərlər?

İlk olaraq, ev şəraitində məşq edərkən əzələləri möhkəmləndirmək üçün onları daim hərəkət etdirmək lazımdır. Bu, daha çox səbir tələb edir. Eyni zamanda düzgün qidalanmaq da burada mühüm rol oynayır. Həkimlər qeyd edirlər ki, əzələ kütləsinin artımında qidalanmanın payı 80 faizdən çoxdur. Bunun üçün zülal qəbulu artırılmalı, karbohidratlar minimuma endirilməlidir. Belə insanlarda karbohidratlar enerjiyə sərf olunur. Adətən, ev şəraitində məşq edən fiziki imkanları məhdud insanlar karbohidratlardan – çörək və şəkərdən imtina etməlidirlər.

Fiziki imkanları məhdud insanların ev şəraitində idmanla məşğul olmaları üçün dairəvi məşq proqramı hazırlanır. Təbii ki, burada onların fiziki imkanının hansı baxımdan məhdud olduğu nəzərə alınır. Həkimlər hər bir nüansı diqqətə alıb yekun proqramı hazırlayırlar.

Əzələlərin gücünü artırmaq üçün əvvəlcə yüngül ştanqdan istifadə edilməlidir. Əgər bunu etməyə imkan yoxdursa, kardiomaşqlərlə idmanı davam etdirmək olar.

**Dartınma.** Bunu etməyə imkanı olanlar 5 dəqiqəlik fasilə ilə 4 seansda 10 dəfə dartınmaqla ev şəraitindəki məşqlərə start verə bilər.

**Jim.** Yerlə bədən arasında paralellik yaranmalıdır. Bundan sonra özünüzü yerdən yuxarıya doğru hərəkət etdirin. Fiziki imkanları məhdud insanlar üçün bu, ən ideal idman hərəkəti hesab olunur. Çünki gün ərzində dairəvi məşq zamanı bunu 6 seansda 60-80 dəfə etmək onurğa sütununun düz qalmasına zəmin yaradır.

**Çöməlmə.** Burada daha çox oturacaqdan istifadə etmək lazımdır. Ayağın biri oturacağa qoyulur, digəri isə dizə kimi oturacaqla paralellik təşkil edir. Bundan sonra çöməlmə hərəkətlərinə başlanılır.

**Əlləri tərs tutmaqla dartınma.** Ev şəraitində boyunuzdan 25-30 santimetr yüksəklikdə bərkidilmiş dəmirdən əlləri tərs tutmaqla dartınma hərəkəti edilir. Bunu dairəvi məşqdə 4 seansda 32 dəfə etmək məqsədəuyğundur.

Bir neçə dəqiqə istirahətdən sonra yenidən bu hərəkətləri təkrarlamaq olar. Ümumiyyətlə, gün ərzində minimum 4 dəfə dairəvi olaraq məşqlər yerinə yetirilərsə, bu, eyni zamanda fiziki imkanları məhdud insanların psixoloji vəziyyətinə də müsbət təsir göstərəcək.

## Zəka sahiblərimiz Türkiyədə keçirilən beynəlxalq festivallarda uğurla çıxış ediblər

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının yetirmələri Türkiyədə keçirilən beynəlxalq şahmat festivallarında iştirak ediblər.

İlk olaraq zəka sahiblərimiz 19-24 avqust tarixlərdə Ankaranın Çubuk rayonunda keçirilən üçüncü beynəlxalq şahmat festivalında qüvvələrini sınayıblar. Turnirdə şahmatçılarımız uğurla çıxış ediblər. Belə ki, B kateqoriyasında mübarizə aparan Tural Zeynalov turniri ikinci pillədə başa vurub. Bu kateqoriyanın qalibi isə idmançımız Orxan Həsənov olub. 10 yaş kateqoriyasında şahmatçımız Nazlı Hümbətova uğurlu çıxışı ilə yadda qalıb. O, qızların mübarizəsində birinci, ümumilikdə isə bu yaş kateqoriyası üzrə ikinci olub. Digər medalı isə komandamıza Nəsrin Babayeva qazandırıb. O, 14 yaş kateqoriyası üzrə turniri ikinci pillədə başa vurub.

25-30 avqust tarixlərdə isə qonşu ölkənin Malatya şəhərində beşinci beynəlxalq şahmat festivalı təşkil olunub. Bu turnirdə də idmançılarımız 4 müxtəlif əyarlı medal əldə ediblər. 8 yaşlı oğlanlar arasında Oğuz Cabbarlı, 10 yaşlı qızlar arasında Nazlı Hümbətova və 14 yaşlı oğlanlar arasında Əli Əliyev ikinci olublar. 14 yaşlı qızların mübarizəsində isə qalib adını zəka sahibimiz Nəsrin Babayeva qazanıb.

İdmançılarımız təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 697